# COP29 gənclərdə ekoloji məsələlərə qarşı məsuliyyətli yanaşma formalaşdıracaq



**Dünyada artıq etiraf edirlər ki, iqlim dəyişmələri real təhlükədir. İstənilən sahəyə mənfi təsirləri olan temperaturun artımı ilə mübarizə son zamanlar siyasi liderlər, ekspertlər, alimlərin bir araya gəldiyi beynəlxalq tədbirlərin, konfransların əsas mövzularından birinə çevrilib. Eyni zamanda özəl sektor da bu problemin həllinə öz töhfəsini vermək niyyətindədir.**

İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü noyabrda Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 sədrliyinin Fəaliyyət Gündəliyi çərçivəsində elan etdiyi qlobal təşəbbüslərdən biridir. Təhsil, bacarıqlar, sağlamlıq və rifah insanların iqlim böhranı ilə mübarizəyə töhfə verməsini təmin edən əsas amillərdəndir. Fərdlərin inkişafı həm iqlim dəyişməsi ilə mübarizə, həm də qlobal istiləşməyə uyğunlaşma ilə bağlı birgə səylər üçün önəm kəsb edir. Bu, maraqlı tərəflərin müvafiq sahələrdə sinerjilər yaratmasına imkan verir.

Daha öncə COP sessiyalarında iqlim dəyişməsi və insan inkişafının müxtəlif aspektləri, o cümlədən sağlamlıq, təhsil, iş yerləri, bacarıq, uşaqlar və gənclərlə bağlı məsələlər müzakirə olunub. Bununla bağlı, COP29 çərçivəsində ilk İnsan İnkişafı günü keçiriləcək və uyğun maliyyə, o cümlədən çoxşaxəli siyasət yanaşmaları ilə dəstəklənməsi məqsədilə bu əlaqəli məsələləri bir araya gətirən İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı təşəbbüsünün icrasına başlanılacaq. Bu təşəbbüsün məqsədi İnsan inkişafı və iqlim dəyişməsi üzrə strateji qlobal əməkdaşlığa qoşulan beynəlxalq təşkilatlar və çoxtərəfli inkişaf bankları ilə fəaliyyətə şərait yaratmaq, ətraf mühitə uyğun ("yaşıl") təhsili dəstəkləyən bütün maraqlı tərəflərlə əməkdaşlığı genişləndirməkdir.

Sağlamlıq üzrə təşəbbüs sayəsində Ümumdünya Səhiyyə Təşkilatı (WHO) ilə yanaşı, keçmiş, hazırkı və gələcək COP sədrliklərinin üzv olacağı İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası təsis ediləcək. Koalisiya sağlamlığın iqlim fəaliyyəti gündəliyinə daimi inteqrasiyasını təşviq edir, ona təsir üzrə investisiya platformasının iqlimyönümlü diqqətin formalaşdırılması və inkişafı üçün investisiya ehtiyaclarını birgə analiz edərək müvafiq tərəfdaşlıqları dəstəkləyir.

Təhsil üzrə təşəbbüs çərçivəsində ekoloji savadlılığın hər bir uşağın təhsilində vacib məqsədə çevrilməsini təmin etmək məqsədilə COP29 Sədrliyi Ekoloji Savadlılıq üzrə Tələblərin Beynəlxalq Qiymətləndirilməsi Proqramının (PİSA) inkişafına dəstək verir.

**Təhsil üzrə ekspert Kamran Əsədovun** sözlərinə görə, COP29 çərçivəsində Bakı Təşəbbüsünün iqlim davamlılığı üçün insan inkişafına yönəlməsi, təhsilin iqlim dəyişiklikləri ilə mübarizədə oynayacağı rolun əhəmiyyətini vurğulayan mühüm addımdır. İqlim dəyişmələri təkcə ekoloji və iqtisadi deyil, həm də sosial bir problemdir. Bu baxımdan, iqlim problemlərinin həlli üçün təhsilin geniş və dərin şəkildə tətbiq olunması olduqca vacibdir. Təhsil iqlim davamlılığının təmin olunmasında müxtəlif səviyyələrdə böyük bir güc və potensial yarada bilər.

"Birincisi, təhsil insanları iqlim problemləri haqqında maarifləndirərək fərdlərin bu problemlərə daha məsuliyyətlə yanaşmasına kömək edir. Bu sahədə erkən yaşdan başlayaraq təhsilin iqlim dəyişmələrinin fəsadları, təbiətin qorunması və resursların səmərəli istifadəsi barədə bilikləri aşılaması gələcək nəsillərin davamlı bir dünya qurması üçün əsas yaradır. İqlim davamlılığı sahəsində təhsilin verə biləcəyi faydalardan biri də "yaşıl düşüncə"nin, ekoloji dəyərlərin və davranış modellərinin uşaqlara və gənclərə mənimsədilməsidir. Erkən yaşlardan başlayaraq, təbiətə qayğı göstərməyin, suya və enerjiyə qənaət etməyin, təkrar istifadənin və tullantıların azaldılmasının əhəmiyyətini öyrətmək gənc nəsildə ekoloji məsuliyyət hissini gücləndirir.

İkincisi, iqlim dəyişmələri ilə mübarizə sahəsində təhsil və tədqiqatlar çox vacibdir. Universitetlər və digər təhsil müəssisələri bu sahədə qabaqcıl tədqiqatlar apararaq, innovativ texnologiyaların və ekoloji həll yollarının inkişafına töhfə verə bilər. Məsələn, günəş enerjisi, külək enerjisi kimi alternativ enerjidən istifadənin təşviqi və bu sahələr üzrə elmi tədqiqatların aparılması Azərbaycanda daxil olmaqla, bütün dünya ölkələri üçün iqlim davamlılığına nail olmaqda böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Bakı Təşəbbüsü çərçivəsində iqlim problemləri üzrə elmi araşdırmalara dəstək vermək və gənc tədqiqatçıları bu sahəyə yönləndirmək önəmli bir töhfə ola bilər", - deyə ekspert bildirib.



Bakı Təşəbbüsünün iqlim davamlılığı və təhsilə dair təklifləri, Azərbaycan təhsil sistemində ekoloji təhsilin genişləndirilməsinə və bu sahədə yeni proqramların yaradılmasına təkan verə bilər. Bu təşəbbüs, iqlim təhsilini yalnız texniki biliklərlə məhdudlaşdırmayaraq, sosial və iqtisadi aspektləri də nəzərə alan bir şəkildə genişlədə bilər.

K.Əsədov vurğulayıb ki, Bakı Təşəbbüsünün təhsil sahəsində digər bir mühüm töhfəsi, iqlim dəyişmələri mövzusu üzrə müxtəlif maarifləndirici layihələrin həyata keçirilməsi ola bilər. İqlim mövzusunda təşkil olunacaq seminarlar, konfranslar, ixtisaslaşma proqramları və açıq kurslar gənclərə bu sahədə əsas bilikləri əldəetmə imkanı yaradacaq. Məsələn, Azərbaycanın müxtəlif bölgələrində məktəblilər üçün ekoloji təlimlər və kampaniyalar təşkil etmək, onların ətraf mühitə qayğıkeş yanaşmasını təmin edəcək. Belə təşəbbüslər iqlim dəyişmələrinə qarşı mübarizədə yalnız yerli deyil, həm də beynəlxalq səviyyədə təcrübə mübadiləsini təşviq edə bilər. Bakı Təşəbbüsü bu kimi maarifləndirmə proqramları vasitəsilə cəmiyyətin bütün təbəqələrinə iqlim dəyişmələrinin təsirini anlatmaq və onları bu sahədə daha fəal etmək üçün bir platforma yarada bilər.

"Ümumilikdə, COP29 çərçivəsində Bakı Təşəbbüsü iqlim davamlılığı üçün insan inkişafına yönələn təhsil proqramlarının gücləndirilməsinə töhfə verə bilər. Bu təşəbbüs Azərbaycan gənclərinin ekoloji məsələlərə qarşı məsuliyyətli bir yanaşma formalaşdırmasını təmin edəcək və bu sahədə müasir biliklərə malik kadrların hazırlanmasına dəstək verəcək. Bu isə uzunmüddətli perspektivdə Azərbaycanın iqlim davamlılığını təmin etməkdə əsas vasitələrdən biri olacaq. Beləliklə, təhsil iqlim məsələlərinin həllində təməl bir rol oynayacaq, eyni zamanda Bakı Təşəbbüsü Azərbaycanın və digər ölkələrin gələcək nəsilləri üçün davamlı inkişaf imkanları yaradacaq", - deyə ekspert bildirib.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2024.- 26 oktyabr (№ 236).- S.6.